# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ KİTABXANALAR

***Kubra Məmməd qızı Sadıqova***

*AMEA MEK-in Xarici dillərdə*
*ədəbiyyat fondunun müdiri*
*kubra.sadiqova01@gmail.com*

***Açar sözlər:*** *Ümummilli lider, kitab mədəniyyəti, polad iradə, kitabxana fondları, miniatür nəşrlər*

***Ключевые слова:*** *Национальный лидер, книжная культура, стальная воля, библиотечные фонды, миниатюрные издания*

***Keywords:*** *National leader, book culture, state steel will, library funds, miniature publications*

**Xülasə:** Azərbaycan elmini, mədəniyyətini və ədəbiyyatını dərindən bilən, onu böyük məhəbbətlə sevən və yüksək qiymətləndirən, xalqımızın Ümummilli lideri, müstəqilliyimizin memarı, dünya şöhrətli ictimai-siyasi və dövlət xadimi Heydər Əliyevin Azərbaycan kitab mədəniyyəti, kitabçılıq işi, kitab və onun nəşri məsələləri ilə əlaqədar dahiyanə və müdrik fikirləri, qayğısı, eyni zamanda onun zəngin irsi və Ulu öndərə həsr olunmuş fundamental kitablar tədqiq edilmişdir. Zəngin siyasi natiqlik təcrübəsinə malik Heydər Əliyevin nitqində etik və estetik dəyərlərin araşdırılması bu istiqamətdə doğru atılmış mühüm addımdır. Şifahi nitqlərində etik və estetik mətnləri dinləyici şüuruna çatdıra bilmək Heydər Əliyev dühasına xasdır. Tarixi yaşadan, əsrdən-əsrə ötürən söz-ədəbiyyat olub. Sözü-ədəbiyyatı isə yaşadan, ucaldan, tarix səhifələrinə yazan dahilər olub. Heydər Əliyev dövlət rəhbəri kimi belə şəxsiyyətləri bir daha qiymətləndirir, söz ucalığında dəyərləndirir. Azərbaycan kitabşünaslığının, nitq mədəniyyətinin, xüsusilə siyasi natiqliyimizin inkişafında əvəzsiz rolu olan Heydər Əliyev irsinin öyrənilməsi, onun bu sahədə gördüyü işlər danılmazdır. Təhsil sahəsində verdiyi təlimatlar gənclərdə elmə, biliyə maraq artırmaqla yanaşı onların bu sahədə irəliləməsinə və yüksək səviyyəli gənc alimlərin formalaşmasına, onların bu istiqamətdə biri-birindən maraqlı tədqiqatlar aparmasına, yeni-yeni ixtiralar, kəşflər etməsinə səbəb olmuşdur. Müasir dövrümüzdə inkişaf etmiş gənclərin təməlində Heydər Əliyev dəstəyi özünü bariz göstərir.

**Резюме.** В тезисе были изучены гениальные и мудрые идеи и заботы общенационального лидера нашего народа, архитектора нашей независимости, всемирно известного общественно-политического и государственного деятеля Гейдара Алиева, глубоко знавшего азербайджанскую науку, культуру и литературу, любившего и высоко ценившего ее, относительно азербайджанской книжной культуры, книгоиздания, книг и их издания, а также его богатое наследие и фундаментальные книги, посвященные великому лидеру. Исследование этических и эстетических ценностей в речах Гейдара Алиева, имевшего богатый опыт политического ораторского искусства, является важным шагом вперед. Умение доносить до сознания слушателей этические и эстетические тексты в устных речах характерно для гения Гейдара Алиева. Именно литература сохраняла историю живой и передавала ее из века в век. Были гении, которые сохраняли жизнь словам и литературе, возвеличивали их и записывал на страницах истории. Гейдар Алиев, как глава государства, еще раз ценит и высоко оценивает такие личности. Изучение наследия Гейдара Алиева, неоценимая роль которого в развитии азербайджанской библиографии, культуры речи и особенно нашего политического ораторского искусства, и проделанная им в этой области работа неоспоримы. Его указания в области образования не только повысили интерес к науке и знаниям среди молодежи, но и способствовали ее продвижению в этой области, формированию молодых ученых высокого уровня, проводивших интересные исследования в этом направлении, совершавших новые изобретения и открытия.

В нашу современную эпоху поддержка Гейдара Алиева проявляется в создании развитой молодежи.

**Summary:** The ingenious and wise ideas and care of Heydar Aliyev, the national leader of our people, the architect of our independence, the world-famous public-political and statesman, who deeply knew Azerbaijani science, culture and literature, loved and highly appreciated it, regarding Azerbaijani book culture, bookmaking, books and their publication, as well as his rich heritage and fundamental books dedicated to the Great Leader, have been studied. The study of ethical and aesthetic values in the speech of Heydar Aliyev, who had rich political oratory experience, is an important step forward. Being able to convey ethical and aesthetic texts to the listener's consciousness in his oral speeches is inherent in the genius of Heydar Aliyev. It was the word-literature that kept history alive and passed it down from century to century. And it was the geniuses who kept the word-literature alive, exalted it, and wrote it on the pages of history. Heydar Aliyev, as the head of state, once again evaluates such personalities, highly values them. The study of Heydar Aliyev's heritage, which has an irreplaceable role in the development of Azerbaijani bibliography, speech culture, especially our political oratory, and the work he has done in this field are undeniable. The instructions he gave in the field of education not only increased interest in science and knowledge among young people, but also led to their progress in this field and the formation of high-level young scientists, who conducted interesting research in this direction, made new inventions and discoveries. Heydar Aliyev's support is evident in the foundation of the developed youth in our modern era.

Digər əsrlər kimi, XX əsr də Azərbaycan xalqına çox böyük tarixi şəxsiyyətlər bəxş etmişdir. Bu şəxsiyyət l ərdən biri də, Ümummilli liderimiz, görkəmli dövlət, siyasət, elm və mədəniyyət xadimi Heydər Əlirza oğlu Əliyevdir. Heydər Əliyev çox maraqlı, mürəkkəb, zəngin, keşməkeşli bir ömür yolu keçmiş, həyatın bütün çətinliklərindən qalib çıxmış, öz zəhməti, zəkası, fitri qabiliyyəti ilə ən yüksək zirvəyə yüksəlmişdir. Bu uca zirvənin yolları daşlı-kəsəkli olsa da, polad iradəsi, dönməz xarakteri, şəxsiyyət bütövlüyü bu zirvəni fəth etməkdə ona kömək etmişdir. Bütün dünyanın etiraf etdiyi böyük dövlət xadimi, görkəmli siyasətçi, müstəqil Azərbaycan dövlətinin memarı, zəmanəmizin nadir şəxsiyyətlərindən biri Heydər Əliyev çox zəngin irs qoyub getmişdir. Xalqımızın mənəvi sərvəti olan bu zəngin irsi araşdırdıqca respublikamızın son 50 illik həyatında bu nəhəng şəxsiyyətin öz xalqına qırılmaz tellərlə bağlı olduğu, onu ürəkdən sevdiyi, Azərbaycanın inkişafı və tərəqqisi naminə böyük işlər gördüyü, bütün varlığını, həyatını Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsinə həsr etdiyi göz önünə gəlir. Heydər Əliyev bu quruculuğun əsasını 1970-ci illərdən qoymağa başlamışdı.

Ulu öndər Heydər Əliyevin çoxşaxəli fəaliyyətində Azərbaycanda kitabxana işinin inkişaf etdirilməsi məsələsi xüsusi yer tutur. Ulu öndər Heydər Əliyevin hakimiyyəti illərində kitabxana fondlarının artırılmasına, xarici ölkələrdən kitab, jurnal və elmi məcmuələrin alınmasına xüsusi fikir verilirdi. Bütün bunların nəticəsində Sovet dövründə Azərbaycan kitabxana fondlarının zənginləşdirilməsinin zirvə nöqtəsi məhz həmin illərdə oldu.

Tanınmış kitabxanaşünas alim, professor Abuzər Xələfov yazır: "Kitabxana işinin qocaman mütəxəssislərindən, yüksəkixtisaslı kitabxanaçı kadrlar hazırlayan ali təhsil işçilərindən biri kimi böyük iftixar və minnətdarlıq hissi ilə demək istəyirəm ki, ölkəmizdə yüksəkixtisaslı kitabxanaçı kadrların hazırlanmasında Heydər Əliyevin xidmətləri əvəzedilməzdir. O, Respublikada rəhbərliyə gəldikdən sonra 60-cı illərdə ləğv edilmiş kitabxanaları bərpa etmək, yeni kitabxanalar açmaqla yanaşı, yüksəkixtisaslı kitabxanaçı kadrların yetişdirilməsi işinə də xüsusi diqqət yetirməyə başladı. Azərbaycanın kənd rayonlarında yüksəkixtisaslı kadrların olmamasını nəzərə alan Heydər Əliyev qısa bir zaman içərisində Bakı Dövlət Universitetində fəaliyyət göstərən Kitabxanaçılıq fakültəsinin genişləndirilməsi, onun maddi-texniki bazasının möhkəmləndirilməsi, qəbulun artırılması üçün xüsusi göstəriş vermişdir".

Professor Abuzər Xələfov qeyd edir ki, "Respublikamız bu göstəricilərə görə də SSRİ respublikaları içərisində əvvəlinci yerlərdən birinə yüksəlmişdir. Bu göstəricilərin arxasında böyük yaradıcı əmək, iqtisadi-mədəni inkişaf, ciddi təşkilatçılıq işi, Azərbaycan mədəniyyətinə, kitab və kitabxana işinə xalq qayğısı və eyni zamanda xalqın böyük oğlu Heydər Əliyevin iradəsi dayanmışdır. Kitabxana işi sahəsində əldə edilmiş ciddi nailiyyətlərin, böyük kəmiyyət və keyfiyyət göstəricilərinin, əhaliyə kitabxana xidmətinin təşkilində baş verən proseslərin və qazanılmış nailiyyətlərin elmi təhlili məhz bu dövrün (1970-1985) respublikamızda kitabxana işinin tarixində yeni mərhələ - Heydər Əliyev mərhələsi olduğunu söyləməyə imkan verir".

Kitabxanaya yüksək qiymət verən Heydər Əliyev demişdir: "Kitabxana xalq, millət üçün, cəmiyyət üçün müqəddəs bir yer, mənəviyyət, bilik, zəka mənbəyidir. Ona görə də kitabxanaya daimi hörmət xalqımızın mədəniyyətini nümayiş etdirən amillərdəndir". Heydər Əliyevin dövlət kitabxana siyasəti respublika miqyasında aparılan kitabxana işinin əsasını təşkil edir. Kitabxana işinə dair dövlət siyasətinin formalaşdırılmasında Azərbaycan Respublikasının Konstitusiyası əsas qanunvericilik bazası rolunu oynayır. "Kitabxana işi haqqında" qərar, 1998-ci ildə isə ölkəmizin tarixində ilk dəfə olaraq "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. 29 dekabr 1998-ci ildə ölkə Prezidenti Heydər Əliyev tərəfindən imzalanmış və həmin gündən qüvvəyə minmiş Qanun, həmçinin "Kitabxana işi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə 12 mart 1999-cu il tarixli Fərman qanunun ayrı-ayrı maddələrinin yerinə yetirilməsinə cavabdeh olan dövlət orqanlarını müəyyənləşdirmişdir.

"Kitabxana işi haqqında" Qanun dövlət siyasətinin əsasıdır. Bu qanun Azərbaycan Respublikasında müasir dövrdə kitabxana işi üzrə dövlət siyasətini əks etdirir. Qanunda deyilir: "Bu Qanun Azərbaycan Respublikasında kitabxana işi sahəsində dövlət siyasətinin əsas prinsiplərini, kitabxana işinin və kitabxana sisteminin ümumi əsaslarını, kitabxana fondlarının formalaşdırılması və mühafizəsi tələblərini, kitabxanaların maliyyələşdirmə mənbələrini, kitabxanalardan istifadə sahəsində vətəndaşların hüquq və vəzifələrini, kitabxana işi sahəsində beynəlxalq əməkdaşlığın prinsiplərini müəyyən edir".

Ulu öndər Heydər Əliyevin əməli işlərinin məntiqi nəticəsi olaraq Prezident İlham Əliyevin həyata keçirdiyi mütərəqqi siyasət öz bəhrələrini verəcək, bu günün və gələcəyin əsasını təşkil edəcəkdir.

**Ədəbiyyat:**

1. *Rasim Süleymanov*. Ulu öndər Heydər Əliyev və Azərbaycanın kitab mədəniyyəti. Bakı, 2020. - 360 s.
2. *Abuzər Xələfov*. Kitabxana işinin tarixi : ikinci hissə. – Bakı, 552 s.